QƏZET 2002-Cİ İLİN AVQUST AYINDAN ÇIXIR
ГАЗЕТА ВЫХОДИТ С АВГУСТА 2002 ГОДА

# BİRLİK
# ЕДИНСТВО

29 İYUN 2023 - CÜ İL
29 ИЮНЯ 2023 ГОДА
№12 (520)

*DAĞ YƏHUDİLƏRİ STMEGİ BEYNƏLXALQ XEYRİYYƏ FONDUNUN İCTİMAİ - SİYASİ QƏZETİ*
*ОБЩЕСТВЕННО - ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА МЕЖДУНАРОДНОГО БЛАГОТВОРИТЕЛЬНОГО ФОНДА ГОРСКИХ ЕВРЕЕВ СТМЭГИ*

İNTERNETDƏ ÜNVANIMIZ WWW.STMEGİ.COM НАШ АДРЕС В ИНТЕРНЕТЕ



## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İslam dininin əlamətdar mərasimlərindən olan Qurban bayramı özündə xeyirxahlığı, birlik və bərabərliyi, insanın ülvi amallar uğrunda hər cür fədakarlığa hazır olmaq niyyətini əks etdirir.

Milli-mənəvi və dini dəyərlərinə həmişə sadiq olan Azərbaycan xalqı bütün dünya müsəlmanları ilə birlikdə Qurban bayramını qardaşlıq, humanizm və həmrəylik rəmzi kimi yüksək əhval-ruhiyyə ilə qeyd edir. Bu günlərdə həm Həcc ziyarətində, həm də ölkəmizin hər yerində dövlətimizin tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün dualar edilir, xeyriyyəçilik işləri görülür, şəhidlərimizin nurlu xatirəsi ehtiramla yad olunur.

Əziz bacı və qardaşlarım!

Ümidvaram ki, bu mübarək bayram günlərində dua və diləkləriniz gerçəkləşəcək, Uca Yaradan mərhəmətini xalqımızdan əsirgəməyəcəkdir. Bir daha hər birinizə və ölkəmizin hüdudlarından kənarda yaşayan bütün soydaşlarımıza səmimi təbriklərimi çatdırır, ailələrinizə xoşbəxtlik, süfrələrinizə bol ruzi və xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 27 iyun 2023-cü il*

## ЦЕРЕМОНИЯ ОФИЦИАЛЬНОЙ ВСТРЕЧИ ПРЕЗИДЕНТА ТУРЦИИ РЕДЖЕПА ТАЙИПА ЭРДОГАНА



12 июня во дворце «Гюлистан» в Баку от имени Президента Азербайджанской Республики Ильхама Алиева и первой леди Мехрибан Алиевой был устроен государственный прием в честь находящегося в нашей стране с государственным визитом по приглашению Президента Азербайджана Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана и первой леди Эмине Эрдоган.

Как сообщает АзерТАдж, Президент Азербайджана Ильхам Алиев и первая леди Мехрибан Алиева встретили Президента Турции Реджепа Тайипа Эрдогана и первую леди Эмине Эрдоган.

13 июня состоялась церемония официальной встречи Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана, прибывшего с государственным визитом в нашу страну по приглашению Президента Азербайджанской Республики.

На площади, где развевались государственные флаги двух стран, в честь Президента Турции был выстроен почетный караул.

Президент Азербайджана Ильхам Алиев встретил Президента Турции Реджепа Тайипа Эрдогана.

Прозвучали государственные гимны Турецкой Республики и Азербайджанской Республики. Президент Реджеп Тайип Эрдоган поприветствовал азербайджанских солдат.

Под звуки военного марша почетный караул прошел перед Президентом Азербайджанской Республики Ильхамом Алиевым и Президентом Турецкой Республики Реджепом Тайипом Эрдоганом.

13 июня состоялась встреча Президента Азербайджанской Республики Ильхама Алиева и Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана один на один.

В тот же день состоялась встреча Президента Азербайджанской Республики Ильхама Алиева и Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана в расширенном составе.

Приветствуя Президента Турции Реджепа Тайипа Эрдогана, Президент Ильхам Алиев сказал:

- Ваш государственный визит нас очень радует. Рад, что за короткое время после президентских выборов Вы совершаете визит в Азербайджан. Хочу еще раз поздравить Вас с победой. Желаю Вам новых успехов. Уверен, что и в предстоящие годы наши дружба, братство будут, как всегда, на высоком уровне.

Сегодня мы с Вами уже в ходе встречи один на один обсудили многие вопросы. Сейчас это будет продолжено нашими делегациями. Турецко-азербайджанское единство, братство - это международный фактор, фактор стабильности, развития и безопасности. Доверие, проявленное к Вам турецким народом во время президентских выборов, является высокой оценкой Ваших многолетних заслуг перед турецким народом. Вы знаете, что Вас очень любят в Азербайджане. Вы наш дорогой гость.

Президент Турции Реджеп Тайип Эрдоган сказал:

- Уважаемый господин Президент, дорогой Брат. Уважаемые члены делегации.

От себя лично и от имени моей делегации приветствую Вас с самыми искренними чувствами. После переизбрания президентом по воле нашего народа мы по традиции сначала посетили Северный Кипр, сразу после этого прибыли в Баку и сейчас находимся с Вами. От себя лично и от имени моей делегации хочу выразить особую сердечную благодарность за оказанное гостеприимство.

13 июня Президент Азербайджанской Республики Ильхам Алиев и Президент Турецкой Республики Реджеп Тайип Эрдоган выступили с заявлениями для прессы.

Затем состоялся совместный рабочий обед Президента Азербайджанской Республики Ильхама Алиева и первой леди Мехрибан Алиевой с Президентом Турецкой Республики Реджепом Тайипом Эрдоганом и первой леди Эмине Эрдоган.

13 июня Президент Азербайджанской Республики Ильхам Алиев и находящийся с государственным визитом в нашей стране Президент Турецкой Республики Реджеп Тайип Эрдоган приняли участие в открытии нового Центрального командного пункта Военно-воздушных сил.

13 июня завершился государственный визит Президента Турецкой Республики Реджепа Тайипа Эрдогана в Азербайджанскую Республику.

В Международном аэропорту Гейдар Алиев, где развевались государственные флаги двух стран, в честь высокого гостя был выстроен почетный караул.

Президента Реджепа Тайипа Эрдогана проводил глава нашего государства Ильхам Алиев.

## QURBAN BAYRAMINIZ MÜBARƏK!



Əziz həmyerlilərim!

Müsəlman bacı və qardaşlarım!

Bu günlər dünya müsəlmanları özlərinin ən müqəddəs, ən uca saydıqları Qurban bayramını şadyanalıqla qeyd edirlər. Mən bu böyük və unudulmaz bayram günlərində böyüyüb boya-başa çatdığım Azərbaycan torpağına, onun ləyaqətli oğlu, respublika Prezidenti İlham Əliyevə, ölkə əhalisinə ən xoş arzularımı çatdırıram. Hər bir ailəyə Ulu Tanrıdan xoşbəxt günlər, bol və bərəkətli süfrələr, firavanlıq, zəfərlərlə qeyd olunan günlər, səadət və səmimiyyət arzulayıram.

Azərbaycan tarixən burada yaşayan bütün millətlərin doğma vətəni olmuşdur. Dağ yəhudiləri ilə azərbaycanlıların dostluq və qardaşlıq ənənələri əsrlərdən bəri davam edir və bu səmimiyyət gündən-günə daha da möhkəmlənir, inkişaf edir, möhkəm və sarsılmaz bir ailəyə bənzəyir.

Hörmətli həmvətənlər, əziz qubalılar!

Qoy dünya müsəlmanlarının həmrəylik və qardaşlıq bayramı olan müqəddəs Qurban bayramı günlərində kəsilmiş qurbanlar Böyük və Mərhəmətli Allah tərəfindən qəbul edilsin, doğma Azərbaycanımıza bolluq və bərəkət bəxş olunsun. Ulu Yaradan xalqlarımıza sülh və əmin-amanlıq qismət etsin, Azərbaycan daha da möhkəmlənsin və qüdrətlənsin.

Müqəddəs Qurban bayramınız mübarək, əziz həmyerlilərim!

*German ZAXARYAYEV,*
*STMEGİ Beynəlxalq xeyriyyə fondunun Prezidenti*

# ДЕНЬ НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНА ОТМЕТИЛИ В ИЗРАИЛЕ



*Посольство Азербайджанской Республики в Государстве Израиль организовало официальный приём в честь Дня независимости Азербайджана, который отмечается 28 мая. Это первое мероприятие такого масштаба, которое проводит в Израиле недавно открывшееся посольство Азербайджанской Республики.*

У входа в зал гостей встречал посол Азербайджана в Израиле Мухтар Мамедов. Специально для участия в этом мероприятии из Баку прилетел заместитель министра иностранных дел Фариз Рзаев.

В качестве официального представителя Государства Израиль в мероприятии приняла участие министр по делам спецслужб Гила Гамлиэль. Специальным гостем был вице-Президент Российского еврейского конгресса и Президент Международного благотворительного фонда СТМЭГИ Герман Захарьяев, руководитель медиагруппы фонда Давид Мордехаев, Президент Международной ассоциации Израиль-Азербайджан Адам Амилов и другие..



Среди гостей были послы России, Узбекистана, Казахстана, Вьетнама и других стран. Депутаты израильского парламента также откликнулись на приглашение. В их числе мероприятие посетили: глава межпарламентской организации израильско-азербайджанской дружбы Владимир Белиак, глава партии «Наш дом - Израиль» Авигдор Либерман, председатель Комиссии по вопросам алии, интеграции и диаспоры Одед Форер, депутат Зеэв Элькин. Среди представителей израильских госструктур присутствовали: генеральный директор Министерства обороны Эяль Замир, генеральный директор партии «Наш дом - Израиль» Инна Зильбергерц, уполномоченные представители офисов президента и премьер-министра, сотрудники МИДа, мэры и вице-мэры городов, ректоры вузов, эксперты ведущих мозговых центров, журналисты, бизнесмены, а также представители азербайджанской диаспоры в Израиле, азербайджанские студенты, обучающиеся в израильских ВУЗах.

Мероприятие началось с исполнения гимнов Азербайджанской Республики и Государства Израиль. Открыл мероприятие вступительным словом посол Азербайджана в Израиле Мухтар Мамедов. Посол рассказал об истории независимого Азербайджана. Он отметил, что азербайджанско-израильские отношения, основы которых были заложены общенациональным лидером Гейдаром Алиевым и продолжающиеся в настоящее время Президентом Ильхамом Алиевым, достигли стратегического уровня.

Министр Израиля по делам спецслужб Гила Гамлиэль выразила гордость участием в первом мероприятии по случаю Дня независимости, организованном недавно созданным посольством Азербайджана. Она подчеркнула, что отношения двух стран основаны на взаимном уважении и доверии. Она с удовлетворением рассказала о своей недавней встрече с президентом Ильхамом Алиевым. Израильский министр подчеркнула, что две страны стремятся к установлению мира и стабильности в регионе и во всем мире. Гила Гамлиэль добавила, что еврейская община Азербайджана играет особую роль в развитии отношений между двумя странами.

Отвечая на вопрос журналистов о значимости сегодняшнего дня, Президент Фонда СТМЭГИ Герман Захарьяев отметил: «Мне приятно сегодня присутствовать на этом мероприятии, посвящённом Дню независимости Азербайджана. Очень символично, что в этом году отмечаются и 105-летие Азербайджанской Демократической Республики, и 100-летие со дня рождения общенационального лидера азербайджанского народа Гейдара Алиева, и 75-летие независимости Государства Израиль. Безусловно, за все эти 30 лет между Азербайджаном и Израилем развивалось сотрудничество в различных сферах, но, когда совсем недавно в Израиле было открыто посольство Азербайджана, сотрудничество между странами вышло на новый уровень, а для его дальнейшего развития также существует великолепный потенциал. Я очень рад, что наконец в Израиле открылось посольство Азербайджана. Я не понаслышке знаю, что вся многотысячная община выходцев из Азербайджана давно ждала того дня, когда в Израиле будет открыто посольство страны их происхождения. У многих из них накопились вопросы, которые они решали через различные общественные организации, связанные с Азербайджаном, но сейчас это сделать будет намного проще. Я хорошо знаком с недавно назначенным послом Мухтаром Мамедовым и уверен, что он и впредь будет способствовать укреплению дружественных связей между Азербайджаном и Израилем на всех уровнях. И лично мне, как человеку, для которого Азербайджан является родиной, а Израиль - исторической родиной, это очень приятно видеть. Я давно не был в Израиле и рад что у меня появилась такая возможность. Я встретился с некоторыми представителями нашей горско-еврейской общины и нам многое удалось с ними обсудить».

# BERLİNDƏ "AZƏRBAYCANDA YƏHUDİ HƏYATI" ADLI TƏDBİR KEÇİRİLİB



Azərbaycanın Almaniyadakı səfirliyi İsrail səfirliyi ilə birgə Berlindəki qədim tarixə malik Pestalotsi Sinaqoqunda "Azərbaycanda yəhudi həyatı" adlı tədbir, habelə eyniadlı sərgi və "Azərbaycanda yəhudi irsi" adlı fotokitabın təqdimatını keçirib.

AzərTAc xəbər verir ki, tədbirin rəsmi tərəfdaşları qismində Almaniya Yəhudiləri Mərkəzi Şurası, Berlin Yəhudi İcması və Avropa Ravvinləri Konfransı kimi Almaniyanın və Avropanın ən nüfuzlu yəhudi təşkilatları çıxış ediblər. Tədbirdə Bundestaq deputatları, Almaniyanın dövlət qurumlarının yüksək vəzifəli təmsilçiləri, səfirlər, KİV nümayəndələri, elm və mədəniyyət xadimləri, eləcə də Almaniyada yaşayan Azərbaycan, yəhudi, türk və digər icmaların üzvləri iştirak ediblər.

Səfir Nəsimi Ağayev çıxışında iştirakçıları ölkəmizdə yaşayan yəhudilər, onların tarixi, Azərbaycandakı multikulturalizm və dinlərarası harmoniya mühiti, İsrail ilə qurulmuş dostluq münasibətləri və strateji tərəfdaşlıq barədə məlumatlandırıb. O, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin ölkədə multikulturalizm və dinlərarası harmoniya mühitinin daha da dərinləşməsinə və inkişafına yönəldiyini vurğulayıb.

İsrailin Almaniyadakı səfiri Ron Prozor tədbirdəki çıxışında Azərbaycan və İsrail arasında yüksək səviyyəli münasibətlərdən söhbət açıb və ölkəmizin İsraildə səfirliyinin təsis edilməsinin bu münasibətləri yeni səviyyəyə qaldırdığını vurğulayıb. Səfir qeyd edib ki, Azərbaycanda yəhudi icmasının yaşaması müsəlmanlar ilə yəhudilərin dinc şəkildə birgəyaşayışına gözəl bir nümunədir.

Tədbirdə tərəfdaş qismində çıxış edən Almaniya Yəhudiləri Mərkəzi Şurasının icraçı direktoru Daniel Botman, Berlin Yəhudi İcmasının sədri Qideon Yoffe və Pestalotsi Sinaqoqunun baş ravvini Yonah Zivers çıxışlarında Azərbaycanda mövcud olan tolerantlıq və dinlərarası harmoniya mühitinin çox təqdirələyiq hal olduğunu bildiriblər.

Tədbir çərçivəsində Milli Məclisin deputatı Anatoliy Rafailov, Bakı Dağ Yəhudiləri dini icmasının sədri Milix Yevdayev və Bakı Avropa Yəhudiləri dini icmasının sədri Aleksandr Şarovskinin iştirakı ilə panel müzakirələr keçirilib. İştirakçılar müsəlman ölkəsində yəhudilərin azad fəaliyyət göstərməsi, öz dini ayinlərini sərbəst şəkildə icra etmələri, habelə Azərbaycanın antisemitizm hallarının mövcud olmadığı nadir ölkələrdən olmasından bəhs ediblər.





## ИНФОРМАЦИОННЫЙ БЛОК

### ДЕЛЕГАЦИЯ КНЕССЕТА ПОСЕТИЛА КРАСНУЮ СЛОБОДУ

Израильская парламентская делегация посетила Красную Слободу

В составе делегации: председатель парламентского комитета по международным отношениям и обороне Юлий Эдельштейн, глава комитета по дипломатическим вопросам Сара Цвебнер и член комитета Рам Бен-Барак.

Экскурсию по Музею горских евреев для гостей провел его директор Игорь Шаулов, рассказавший об истории создания культурного учреждения, об артефактах, собранных здесь со всего Кавказа.

Кроме того, члены Кнессета посетили синагогу Килеки, Шестикупольную синагогу и другие объекты историко-культурного наследия.

### ТЕЛЬ-АВИВ НАЗВАН «САМЫМ СЧАСТЛИВЫМ ГОРОДОМ ПЛАНЕТЫ»

Туристический портал TheTravel обнародовал обновленный рейтинг самых счастливых городов планеты, первое место в котором занял израильский Тель-Авив.

Составители рейтинга отметили, что Тель-Авив отличается богатым культурным наследием, приятными людьми, изобилием пищи, отличным шоппингом и возможностями для обучения.

По мнению авторов Тель-Авив также является одним из лучших на планете городов для отпуска.

Следом за ним в рейтинге идет Мадрид, Фремонт, Сан-Хосе, Стокгольм, Торонто, Амстердам, Рейкьявик, Берген и Копенгаген.

# ПРОЗВЕНЕЛ ПОСЛЕДНИЙ ЗВОНОК

*Казалось бы, совсем недавно начался новый учебный год, но уже на дворе июнь месяц, настало время прозвенеть последнему звонку. Ученики школ Красной Слободы, как и тысячи их сверстников по всей республике с хорошими итогами завершили очередной учебный год*



Ученики 11 класса школы №1 имени Исаака Ханукова Красной Слободы с нетерпением ждали, когда прозвенит последний звонок . Наконец он раздался.

В 10 часов утра началась торжественная церемония. Под бурные аплодисменты на площадь выносится Государственный Флаг Азербайджанской Республики. Участники церемонии исполняют Гимн нашей страны.

Выступивший на торжественной церемонии директор школы Явушва Симандуев поздравил выпускников со знаменательным событием в образовании, пожелал им успехов в нелегкой дороге по жизни. Директор школы подробно информировал о заботе и внимании главы нашего государства Ильхама Алиева и Первого вице-президента Мехрибан Алиевой об образовании и науке.

Явушва Донович также рассказал о достижениях школы в 2022-2023 учебном году. Он отметил, что педагогический коллектив сумел справиться с возложенными на него задачами. На многих республиканских смотрах и конкурсах школьники этого учебного заведения демонстрировали свое умение.

Явушва Симандуев выразил надежду, что выпускники будут всегда занимать активную позицию в жизни, верно служить Родине и народу.

Дорогие выпускники, постарайтесь использовать знания, полученные вами в нашей школе. Верю, что вы приобщитесь к еще большим знаниям, станете настоящими профессионалами, прежде всего достойными гражданами независимого Азербайджана. Пусть каждый ваш шаг дарит нам радость. Оставайтесь всегда такими юными и красивыми, оставьте в жизни свой яркий след. Желаю вам счастья и успехов на жизненном пути! - добавил руководитель школы.





Затем Явушва Симандуев вручил отличникам учебы и активным ученикам Почетные грамоты.

*Зумруд МИРЗОЕВА*

# ИЗРАИЛЬСКАЯ ПЕЧАТЬ НАЗВАЛА АЗЕРБАЙДЖАН САМЫМ ВЕРНЫМ МУСУЛЬМАНСКИМ СОЮЗНИКОМ ЭТОЙ СТРАНЫ


Israel Bolsters Increasingly Important Relations With Azerbaijan

Поощрение связей между Государством Израиль и его самым верным мусульманским союзником Азербайджаном представляет большое значение.

Как сообщили в АзерТАдж из Государственного комитета по работе с диаспорой, известный израильский политический обозреватель и журналист, учредитель и генеральный директор Дипломатического центра Дона Грация Рэйчел Авраам написала об этом в статье, опубликованной в выходящей в ее стране газете «İsrael Today», имеющей широкую читательскую аудиторию.

В статье под заголовком «Израиль укрепляет отношения с Азербайджаном, значение которых возрастает» приводится цитата Президента Ицхака Герцога, выступившего в рамках недавнего официального визита в нашу страну в Центре Гейдара Алиева в Баку на мероприятии, посвященном 75-й годовщине независимости Государства Израиль: «Сближение Азербайджана и Израиля, тесное сотрудничество между двумя государствами имеет ряд причин. Израиль считает Азербайджан, а Азербайджан - Израиль своим большим другом. Эта историческая дружба между двумя странами представляет большое геостратегическое значение».

Президент также заявил, что как Израиль, так и Азербайджан - народы, гордящиеся сохранением своих обычаев и традиций. Несмотря на то, что Израиль является еврейским государством, а население Азербайджана составляют в основном мусульмане, возможность сотрудничества для этих двух стран представляет большое значение. Подчеркнув, что Иран пытается стереть Израиль с лица земли, Президент Израиля высоко оценил то, что в данный момент у его страны есть такой близкий друг, как Азербайджан.

На мероприятии с участием высокопоставленных лиц двух стран отмечено, что проведение национального праздника Государства Израиль в Центре, носящем имя великого лидера Гейдара Алиева, является весьма знаменательным событием. Так, азербайджано-израильские отношения, основа которых была заложена общенациональным лидером Гейдаром Алиевым, успешно продолжаются сегодня Президентом Азербайджанской Республики Ильхамом Алиевым.

В статье, где отведено место мнению многих известных политических экспортов, подчеркивается, что визит Ицхака Герцога не вызывает никакого удивления, так как этот визит совпал с периодом, когда отношения между Азербайджаном и Ираном опустились до самой низкой точки. Визит министра иностранных дел, а вслед за этим Президента Израиля в нашу страну и подписание ряда документов о сотрудничестве служат показателем достижения нового этапа развития двусторонних отношений.

НАГРАЖДЕНИЕ

# ФУАД МУРАДОВ ВСТРЕТИЛСЯ С ЕГЯНОЙ САЛЬМАН



Состоялась встреча председателя Государственного комитета по работе с диаспорой Фуада Мурадова с вице-президентом Международной ассоциации Израиль-Азербайджан и директором Азербайджанского культурного центра при ассоциации Егяной Сальман.

Поприветствовав гостью, председатель комитета высоко оценил осуществляемые Международной ассоциацией Израиль-Азербайджан проекты в области пропаганды в Израиле реалий и богатой культуры Азербайджана, вклад Егяны Сальман в этот важный процесс. Затем председатель комитета, поздравив Егяну Сальман с 70-летним юбилеем, вручил ей медаль Азербайджанской Республики "За заслуги в диаспорской деятельности", которой она была награждена за заслуги в области развития азербайджанской диаспоры.

VƏTƏN MÜHARİBƏSİ QƏHRƏMANLARI

# ŞƏHİD NURAN MİRZƏYEVİN QƏHRƏMANLIĞI

Nuran Akif oğlu Mirzəyev 1999-cu il iyul ayının 27-də Qımıl kəndində anadan olub. O, 2005-2014-cü illərdə Qımıl kənd tam orta məktəbində təhsil aldıqdan sonra Quba Peşə Liseyində rabitə, elektrik mantyoru və sürücü ixtisaslarına yiyələnib.

Nuran Mirzəyev 2017-ci il iyulun 27-dən 2019-cu il yanvarın 15-dək həqiqi hərbi xidmətdə olub.

Təxminən bir il doqquz ay sonra, 2020-ci ilin sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələri cəbhəyani yaşayış məntəqələrimizi atəşə tutmağa başladı. Erməni terror dövlətini nüvbəti təcavüzünə cavab olaraq sentyabrın 27-də başlayan əməliyyat Vətən müharibəsinə çevrildi və uzun illərdən bəri həsrətində olduğumuz milli birlik, milli qürur hissləri ortaya qoyuldu.

Səfərbərlik elan olunan ilk günlərdən Nuran da, atası Akifdəm, anası Təranədən xeyir-dua alıb xalqın, millətin şərəf və ləyaqətinin yeganə təminatçısı olan müzəffər ordumuza qoşuldu.

Nuran Mirzəyev 1993-cü ilin avqust ayından düşmən tapdağında olan Cəbrayıl və Qubadlı rayonlarının azad olunması uğrunda gedən döyüşlərdə fəal iştirak etdi. “Mən Azərbaycan vətəndaşıyam, bu torpağı qorumağ mənim borcumdur”, -deyirdi Nuran. Qorudu da. Əks hücum əməliyyatları nəticəsində Cəbrayıl rayonunun Doşlu, Vələnd, Papı, Tulus, Qubadlı rayonunun Padar, Əfəndilər, Yusifbəyli və digər yaşayış məntəqələrinin işğaldan azad edilməsində igidlik və mərdlik göstərərək döyüş bacarığını dəfələrlə sübut etdi.

Nuran 2020-ci ilin oktyabr ayının 19-da növbəti döyüşlərin birində minaya düşərək həyatını itirsə də bütöv bir bölüyü xilas etmişdi. Döyüş yoldaşlarının dediyinə görə seyrək meşə sahəsində düşmən üzərinə növbəti hücum əməliyyatı zamanı Nuran bölüyün qabağında gedirmiş.



Birdən onun boynuna nazik bir məftil ilişir. Nuran qışqırıb əsgərlərə bildirib ki, tez geriyə çəkilsinlər ərazi minalanıb.

Nuran Mirzəyev 2020-ci ilin oktyabr ayının 21-də Qımıl kənd qəbristanlığında dəfn edilib.

Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlarına görə “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə”, “Qubadlının azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.

Qımılda onun xatirəsinə həsr olunmuş “Şəhid bulağı” kompleksi tikilib.

*Ş. SEYİDMƏMMƏDOV*

## Faktlar, hadisələr, insanlar

### AZƏRBAYCANIN İSRAİLDƏKİ SƏFİRİ HOLON TEXNOLOGİYA İNSTİTUTUNDA TƏHSİL ALAN BDU TƏLƏBƏLƏRİ İLƏ GÖRÜŞÜB

Azərbaycanın İsraildəki səfiri Muxtar Məmmədov Holon Texnologiya İnstitutunda olub. Səfir burada kompüter elmləri üzrə ikili diplom proqramına əsasən təhsil alan Bakı Dövlət Universitetinin tələbələri ilə görüşüb.

Səfir Muxtar Məmmədov İsrailin Holon Texnologiya İnstitutu ilə əməkdaşlığın son dərəcə uğurlu olduğunu vurğulayıb. Qeyd edib ki, bununla İsrail və Azərbaycan arasında geniş akademik əməkdaşlığa qapı açılıb.

Holon Texnologiya İnstitutunun prezidenti professor Eduard Yakubov da Azərbaycan-İsrail əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib. O qeyd edib ki, bu əməkdaşlığa Holon Texnologiya İnstitutu da öz töhfəsini verir.

### DİGAH KƏNDİNDƏ YENİ MƏKTƏB BİNASI TİKİLİB

Digah kəndində inşa olunan 360 şagird yerlik, üçmərtəbəli məktəb binasında son tamamlama işləri aparılır.

Fərhad Həmzəyev adına Digah kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə 2022-ci ilin aprel ayından başlanılıb.

Digah kəndindəki məktəbin köhnə binası 98 il öncə istifadəyə verilib. Yaşı bir əsrə bərabər binada tədris prosesini müasir dövrün tələblərinə uyğun təşkil etmək mümkün deyildi. İstismar müddətini başa vuran binanın yerinə müasir məktəb binası inşa olunub. Hazırda binada son tamamlama və tərtibat işləri aparılır, məktəbin həyəti abadlaşdırılır.

### ŞİMAL BÖLGƏSİ ÜZRƏ 533 MÜƏLLİM İMTAHANLARDA İŞTİRAK EDƏCƏK

Quba-Xaçmaz Regional Təhsil İdarəsi üzrə təhsilverənlərin sertifikatlaşdırılması imtahanlarında 533 müəllimin iştirakı nəzərdə tutulur.

AzərTAc-ın bölgə müxbiri xəbər verir ki, onlardan 45-i ibtidai sinif, 488-i isə Azərbaycan dili və ədəbiyyatı fənni üzrə müəllimdir. Region üzrə imtahanlar bir mərkəzdə - Xaçmaz şəhəri Cəfər Cabbarlı adına 6 nömrəli tam orta məktəbdə təşkil olunacaq.

### "İNTEL" İSRAİL TARİXİNƏ ƏN BÖYÜK İNVESTİSİYA QOYAN BEYNƏLXALQ ŞİRKƏT KİMİ DÜŞƏCƏK

ABŞ-ın çip istehsalçısı "Intel" İsrail iqtisadiyyatına 25 milyard dollardan çox sərmayə qoymağı planlaşdırır.

AzərTAc xəbər verir ki, bu barədə İsrailin baş naziri Benyamin Netanyahu bildirib.

O, özünün tviter səhifəsində yazıb: "İntel" İsrailə böyük sərmayə yatıracaq. Bu heyrətamiz nailiyyət münasibətilə İsrail iqtisadiyyatını təbrik edirəm. 25,3 milyard dollar İsrail tarixində beynəlxalq şirkət tərəfindən ən böyük investisiyadır".

İsrail Maliyyə Nazirliyi qeyd edib ki, investisiya Kiryat Qatda 2027-ci ildə açılmalı və ən azı 2035-ci ilə qədər fəaliyyət göstərməli olan yeni çip istehsalı müəssisəsinin tikintisinə yönəldiləcək.

### TƏL-ƏVİVDƏ "AZƏRBAYCAN İSRAİL FOTOQRAFLARININ GÖZÜ İLƏ" ADLI FOTOSƏRGİ AÇILIB

Azərbaycan Turizm Bürosunun İsrailin Təl-Əviv şəhərindəki nümayəndəliyinin ofisində "Azərbaycan İsrail fotoqraflarının gözü ilə" adlı fotosərginin açılışı olub.

Sərgidə İsrailin tanınmış fotoqraflarından olan Viktor Zislinin bələdçiliyi ilə Azərbaycana səyahət edən İsrail fotoqraflarının əsərləri nümayiş olunub.

Azərbaycana səfərlər zamanı çəkilmiş fotolar arasından seçilən 20 ən uğurlu foto Bakı və Azərbaycanın digər regionlarının mənzərələrini, təbiətini, tarixi və müasir memarlıq abidələrini əks etdirir.

## НОВЫЙ ЭТАП СОТРУДНИЧЕСТВА МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ИЗРАИЛЕМ В СФЕРЕ ТУРИЗМА



11 июня председатель Государственного агентства Азербайджана по туризму Фуад Нагиев и министр туризма Государства Израиль Хаим Кац обсудили текущее состояние азербайджано-израильских связей в сфере туризма и перспективы сотрудничества.

На встрече была обсуждена деятельность представительства бюро по туризму Азербайджана в Тель-Авиве, состоялся обмен мнениями по вопросам увеличения количества прямых рейсов между двумя странами, программам по обмену студентами с израильскими университетами, формированию совместных туристических продуктов, организации визитов представителей израильских средств массовой информации в Баку.

Было предложено пригласить делегацию израильских компаний в Азербайджан для ознакомительного тура с целью привлечения инвестиций в туристическую сферу освобожденных от оккупации азербайджанских территорий.

В рамках визита в Тель-Авиве состоялось мероприятие, посвященное азербайджанскому туризму, организованное Государственным агентством по туризму, Бюро туризма Азербайджана и ЗАО «Азербайджанские авиалинии». В мероприятии приняли участие около 70 туристических компаний и представители медиа Израиля, а также представители гостиничных и туристических компаний, являющихся членами Ассоциации отелей Азербайджана и Ассоциации туристических агентств Азербайджана.

Цель организации мероприятия - представление туристических возможностей Азербайджана и информации о международных рейсах АЗАЛ, налаживание связей между туристическими компаниями и отелями Азербайджана с туристическими компаниями Израиля.

На мероприятии выступили председатель Государственного агентства по туризму Фуад Нагиев и посол Азербайджана в Государстве Израиль Мухтар Мамедов.





## QUBANIN MƏŞHUR TURİZM MARŞRUTLARI

Quba turistlərin istirahət üçün ən çox səfər etdiyi rayonlar arasındadır. Paytaxt Bakı ilə məsafənin yaxınlığı və geniş turizm imkanları bu bölgəni qonaqlar üçün daha cəlbedici edir.

Qubaya gələn turistlərin istirahət edə biləcəyi 5 əsas turizm marşrutu var. Bunlardan birincisi və ən məşhuru Quba-Xınalıq turizm marşrutudur. Bu turizm marşrutunun ümumi uzunluğu 55 kilometrdir. Bu istiqamətdə səyahət edənlər Xınalıq kəndindəki dağ icmasının unikal mədəniyyəti, həyat tərzi ilə yaxından tanış ola bilərlər. Quba-Xınalıq turizm marşrutunun üzərində yerləşən Cümə məscidi, Quba Tarix-Diyarşünaslıq Muzeyi, Tağlı körpü, Qırmızı Qəsəbə, Quba Soyqırımı Memorial Kompleksi, Qəçrəş meşəsi, Minarə, Qrız körpüsü, Xınalıq Tarix-Etnoqrafiya Muzeyi, Xınalıq Atəşgahı turistlər üçün diqqət çəkən yerlərdir.

Quba - Qırmızı Qəsəbə turizm marşrutu ilə səyahət zamanı Qırmızı Qəsəbədə yaşayan dağ yəhudilərinin tarixi, mədəniyyəti, mətbəxi ilə yaxından tanış olmaq olar. Turistlər həm də burada dünyada məşhur olan Dağ Yəhudiləri Muzeyinin eksponatları ilə tanış ola bilərlər. Onlar həmçinin qəsəbədə fəaliyyət göstərən qədim Kiləki və Altıgümbəz sinaqoqlarını ziyarət edər, buradakı qədim tikililərə tamaşa edərlər. Qəsəbənin mərkəzindəki Qubalı Fətəli xanın adını daşıyan küçə və Azərbaycan xalqının dahi oğlu Heydər Əliyevin adını daşıyan Mədəniyyət və İstirahət Parkı bu qədim yaşayış məntəqəsini ziyarət edənlərin zövqünü oxşayacaq. Turistlər həm də yəhudi və Azərbaycan xalqlarının əsrlərdən gələn dostluğuna və qardaşlığına şahid olacaqlar.

Quba-Xanagah turizm marşrutunun ümumi uzunluğu isə 25 kilometrdir. Şahdağ Milli Parkının bir hissəsi Xanagah kəndinin ərazisinə düşür ki, bu da marşrutu unikallaşdırır. Şahdağ Milli Parkının Xanagah kəndi ərazisinə düşən hissəsi füsunkar meşə, isti su bulağı, Xanagah şəlalələri, Çahacuk kanyonu kimi təbiət abidələrini özündə əks etdirir.

Turistlərin tez-tez səyahət etdiyi Quba-Qrız turizm marşrutunun ümumi uzunluğu 40 kilometrdir. Qafqaz Albaniyasının izlərini daşıyan Qrız kəndinin tarixi, mədəniyyəti və təbiət imkanları marşrutu unikal edir. Ekoturizmi təcrübə etmək üçün Qrız kəndi ən doğru seçimdir. Qrız şəlaləsinin xüsusilə qış ayında donmuş vəziyyəti diqqət çəkir.

Ümumi uzunluğu 35 kilometr olan Quba-Afurca turizm marşrutunun əsas özəlliyi Afurca şəlaləsi, Təngəaltı kəndinin unikal təbiətidir. Bu turizm marşrutunun üzərində yerləşən Birinci Nügədi kənd məscidi, Çənlibel gölü, Afurca şəlaləsi, Təngəaltı kanyonu əsas diqqət çəkən yerlərdir.

*Elxan YUSİFLİ*

### ВАШЕ ЗДОРОВЬЕ



## АБРИКОС-СОЛНЕЧНЫЙ АППЕТИТНЫЙ ПЛОД

Плоды абрикоса благотворно влияют на организм человека: снабжают клетки органов витаминами, минералами, улучшают память, пищеварение, увеличивают работоспособность, заряжают бодростью. Кроме того, абрикос укрепляет иммунитет и стимулирует рост ребенка.

Свежие абрикосы абсолютно безвредны для всех, даже для тех, кто страдает избыточным весом. Есть в абрикосе пектин, способный выводить из организма токсические продукты обмена и холестерин.

Плоды абрикоса повышают гемоглобин в крови, что способствует увеличению сопротивляемости организма, благоприятно влияют на процесс кроветворения, что особенно важно для страдающих анемией. Особенно полезны они при авитаминозах, заболеваниях сердечно-сосудистой системы, почек, ожирении. А также помогают улучшить память и повышают мозговую активность.

### СПОРТ

## СБОРНАЯ ИСПАНИИ ОБЫГРАЛА ХОРВАТИЮ



Сборная Испании в финале Лиги наций обыграла Хорватию со счетом 5:4 по пенальти.

Основное и дополнительное время завершилось без забитых голов. В серии пенальти у хорватов не забили Ловро Майер и Бруно Петкович, у испанцев - Эмерик Лапорт. Победный 11-метровый удар нанес Дани Карвахаль.

Сборная Испании стала победителем Лиги наций-2023. В 2021 году испанцы уступили в финале Франции, завоевав серебряные медали.

Редактор Наджафгулу НАДЖАФОВ

РЕДАКЦИОННАЯ КОЛЛЕГИЯ: Герман ЗАХАРЬЯЕВ, Исай ЗАХАРЬЯЕВ, Давид МОРДЕХАЕВ, Зумруд МИРЗОЕВА, Яшар РУСТАМОВ, Рагим ГУСЕЙНОВ.

АДРЕС РЕДАКЦИИ: КРАСНАЯ СЛОБОДА, УЛИЦА РАШБИЛА ЗАХАРЬЯЕВА 19. Телефон: 335-52-16, e-mail: edinstvo_birlik@mail.ru

ГАЗЕТА ЗАРЕГИСТРИРОВАНА В МИНИСТЕРСТВЕ ЮСТИЦИИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ.

ГАЗЕТА НАБРАНА И СВЕРСТАНА В КОМПЬЮТЕРНОМ ЦЕНТРЕ "BİRLİK-ЕДИНСТВО"